AMEA *İqtisadiyyat İnstitutu*
ISSN 2519-4909

«ELMİ ƏSƏRLƏR» - №6- 2017
E-ISSN 2519-4917

UOT: 330.341.4:339.13:330.341.44:338.33:334.012:
314.17:331:5;331.5
JEL: F 43; J 21

NƏCƏFOVA T. R. i.e.n.
AMEA İqtisadiyyat İnstitutu

AZƏRBAYCAN RESPUBLIKASINDA KIÇIK SAHIBKARLIĞIN INKIŞAFI VƏ MƏŞĞULLUQ PROBLEMLƏRININ HƏLLI MƏSƏLƏLƏRI

Xülasə

Məqalədə müasir dövrdə dünyanın bəzi ölkələrinə və o, cümlədən Azərbaycan Respublikasında kiçik sahibkarlıq institutlarının inkişaf xüsusiyyətləri, kiçik sahibkarlığın ölkə iqtisadiyyatında yeri və rolu, bir çox sosial problemlərin həlli ilə yanaşı ölkədə məşğulluq göstəricilərinin yüksəlməsində potensial imkanlar dəyərləndirilir. Belə bir zəmində Azərbaycanda sahibkarlıq subyektləri ilə bir sıra sosial, iqtisadi institutların məşğulluq probleminin həll edilməsi istiqamətində müştərək fəaliyyət imkanları təhlil edilir.

Açar sözlər: *sahibkarlıq fəaliyyəti, kiçik müəssisələr, məşğulluq, özəl sektor, işçi qüvvəsi*

GİRİŞ

Müasir Azərbaycanda bazar iqtisadiyyatı münasibətlərinin inkişafı və daha da dərinləşməsi şəraitində kiçik sahibkarlıq sektorunun inkişafı qanunauyğun və obyektiv prosesdir. Kiçik sahibkarlıq bazar iqtisadiyyatının müstəqil sektoru kimi milli təsərrüfatın baza tələbatlarını təmin edir və indiki dövrdə kiçik sahibkarlıq sektorunun potensialından daha məqsədəuyğun şəkildə istifadə olunması olduqca vacib məsələlərdəndir.

Eyni zamanda kiçik sahibkarlıq cəmiyyətin davamlı sosial-iqtisadi inkişafının təmin olunması üçün strateji resurs rolunu oynayır, hər şeydən öncə məşğulluq səviyyəsinin yüksəlməsinə, həyat səviyyəsinin yüksəlməsinə ciddi dərəcədə təsir göstərir. Sözügedən sektor bazar münasibətlərinin inkişafının daha da dərinləşməsinə təsir göstərməklə yanaşı, təşkilati və texnoloji yığcamlığı, bazar tələbatlarına çevik uyğunlaşma, dövlət büdcəsinə vəsaitlərin daxil olmasında artıma, sosial resursların bərpasına, sosial differensiallığın zəiflənməsinə də imkan yaradır.

Deyilənlərlə yanaşı ölkədə bazar iqtisadiyyat münasibətlərinin inkişafı prosesinin daha da dərinləşdirilməsi, eyni zamanda xam mal resurslarının, azad istehsal gücləri və tikililərinin səmərəli istifadə olunması, həmçinin xidmət və digər sahələrin inkişaf etdirilməsi və kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi arasında birbaşa əlaqə vardır. Məsələyə bir qədər konkret baxış bucağından diqqət yetirildikdə çox aşkar görünür ki, respublikada məşğulluğun təmin olunması problemlərinin həllində kiçik sahibkarlıq subyektlərinin potensialından hələ də kifayət qədər istifadə edilməmişdir. Halbuki, kiçik sahibkarlığın inkişaf etdirilməsinin ciddi iqtisadi və sosial əsasları varıdır, məhz kiçik müəssisələr ölkənin işsiz əhalisinin əhəmiyyətli bir hissəsinin məşğulluğunun təmin olunmasında mühüm rol oynaya bilər. Müstəqillik illərində özəlləşdirmə kontekstində kiçik sahibkarlıq institutlarının formalaşması və inkişafı ilə bağlı çoxlu elmi əsərlərin nəşr edilməsinə baxmayaraq kiçik sahibkarlıq institutlarının fəaliyyəti və məşğulluq probleminin həlli arasında birbaşa əlaqə ilə bağlı xüsusi araşdırmalar aparılmayıb [2]

Kiçik sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri, iqtisadi müstəvidə yeri və roluna ümumi baxış :

İqtisadi ədəbiyyatlarda belə bir fikir mövcuddur ki, kiçik sahibkarlıq fəaliyyəti təkcə çox saylı imkanlar vəd edən sahə deyil, eyni zamanda çox cəhətli, riskli fəaliyyət növləri kateqoriyasına daxildir.

Onun müsbət və mənfi cəhətlərini SWOT-cədvəl *(İqtisadi fəaliyyət növü kimi kiçik sahibkarlıq fəaliyyətinin SWOT təhlili (ingilis abreviaturasıdır- streght-güclü tərəfləri; weakness-zəif tərəfləri; opportunities- imkanlar; threats-təhlükələr)* vasitəsi ilə əyani şəklidə təsvir etmək mümkündür (cədvəl 1).

Cədvəl №1

Kiçik sahibkarlıq fəaliyyətinin güclü tərəfləri	Zəif tərəfləri	imkanları	Təhlükələr
1.Kiçik həcmlərdə başlanğıc kapitalı	Bazarın (lokal) məhdudluğu	Böyük biznesə qədər artım imkanı	Sürətli tam müflisləşmə
2. Yüksək səmərəlilik	Məhdud perspektivlərdə artım	Balanslaşdırılmış inkişaf	"artım tavanına sürətli nail olunması
3. Çeviklik	Konyunktura dəyişikliklərində yüksək asılılıq səviyyəsi	Öz bazarında güclü mövqe qazanılması	Rəqiblərin həmin bazara asan daxil ola bilməsi imkanı
4. Müstəqillik	Nüfuzlu dəstəyin yoxluğu	imkanlarının yaradıcı reallaşdırılması	Güc vasitəsi ilə təzyiqlər qarşısında zəiflik

Mənbə: *Чепуренко А.Ю., Малое предпринимательство в России//Мир России, 2001№4, (с. 130-161), с. 131*

Cədvəl 1. –də Kiçik sahibkarlıq institutlarını dörd güclü tərəfi, dörd zəif tərəfi, dörd imkan və dörd mövcud təhlükələr diqqəti cəlb edir. Hesab edirik ki, belə bir şəraitdə kiçik sahibkarlıq fəaliyyətində ən riskli hallarda qazanc və itkilər ehtimalı 50% ehtimal arasında baş verə bilər. Belə situasiya biznes fəaliyyətinin ən uğursuz məcrada baş verdiyi hallarda o, qədərdə böyük olmamasından xəbər verir, eyni zamanda daha çevik bazar konyunkturasına adaptasiya olmaq, biznesdə uğur qazanmaq üçün manevr və eksperimentlərin aparılmasını mümkün edir. Məhz belə bir zəmində qeyd etmək yerinə düşərdi ki, ölkə iqtisadiyyatı üçün kiçik biznesin, müvafiq olaraq kiçik sahibkarlıq fəaliyyətinin inkişafı və genişlənməsi onun çevikliyinin artmasına xidmət edir. Kiçik təsərrüfat subyektlərinin inkişaf səviyyəsi iqtisadi şəraitin dəyişilməsi kriteriyalarını müəyyənləşdirir. Bütün bunlar belə aşağıdakı qənaətə gəlməyə əsas verir: kiçik sahibkarlıq fəaliyyəti müasir bazar iqtisadiyyatının ayrılmaz atributlarındandır, bizim ölkəmizdə bir çox iqtisadi, elmi-texniki, sosial problemlərin həllində kiçik sahibkarlıq subyektlərinin rolunun artırılması tələb olunur.

Daha bir vacib xüsusiyyət kimi qeyd olunmalıdır ki, kiçik sahibkarlıq sektoru hər şeydən öncə iri istehsalçıların inhisarını məhdudlaşdırır, bununla da rəqabət formaları inkişaf etmək imkanı qazanır. Deyilənlərlə yanaşı, kiçik sahibkarlıq subyektləri özünün daima dəyişkən şəraitə çevik adaptasiya olmaq, yığcamlığı və bir sıra digər müsbət xüsusiyyətləri ilə bir sıra problemlərin həllinə öz töhfələrini verir. Burada söhbət hər şeydən öncə texniki və kommersiya ideyalarının reallaşdırılması, məşğulluq probleminin həll edilməsi imkanlarından gedir [5, s. 157-159].

Göründüyü kimi, kiçik biznes uzun illər ərzində, plan iqtisadiyyatı dövründə əldən verilmiş imkanların, yaranmış boşluqların doldurulmasına öz töhfəsini verə bilər. Burada söhbət əhaliyə göstərilən xidmətlərdən (məişət, təhsil, istirahət sferasında və s.), biznes xidmətlərindən (konsaltinq, marketinq və s.) gedir.

Deyilənlərlə yanaşı qeyd etmək lazımdır ki, kiçik biznes primitiv olsa da, xüsusi mülkiyyətin xalis formada, səmərəli fəaliyyət göstərə bildiyi sahələrdən sayılır. Kiçik biznesin, kiçik sahibkarlıq subyektlərinin mövcud olmadığı iqtisadi məkanlarda bazarın xüsusi mexanizmlərlə tənzimlənməsi imkanları məhduddur, burada mülkiyyəti hüququnun qorunması, bazarda müqavilələrin azad bağlanması imkanları yoxdur.

Daha bir vacib mənzərəni xüsusi olaraq nəzərə almaq lazımdır ki, sahibkarlıq fəaliyyətinin inkişafı ilə əmək bazarındakı mövcud vəziyyət bir-birinə qarşılıqlı təsir göstərirlər. Hər şeydən öncə əmək bazarının, xüsusən də regional əmək bazarlarının sahibkarlıq fəaliyyətinə təsirinin aşağıdakı xüsusiyyətləri qeyd edilə bilər:

- iqtisadi cəhətdən fəal əhalinin formalaşdırılmasının regional xüsusiyyətləri;

- məşğulluq səviyyəsi və strukturu, regionun iqtisadi inkişafında ixtisaslaşması xüsusiyyətləri;
- xam mal təchizatı səviyyəsi;
- istehsal dinamikası və səmərəliliyi;
- investisiya cəlbedciliyi və fəallığı;
- demoqrafik xüsusiyyətləri;
- Dövlət dəstəyi səviyyəsi və xüsusiyyətləri.

Göründüyü kimi, kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti özünün zəif və güclü yönləri ilə cəmiyyətin iqtisadi həyatında vacib yerlərdən birini tutur.

Müasir dövrdə dünyanın bəzi dövlətlərində kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti ilə bağlı dəyərləndirmələr

Bazar iqtisadiyyatını çox saylı subyektlərin fəaliyyət göstərdiyi mürəkkəb, dinamik sistem kimi nəzərdən keçirərək qeyd etmək lazımdır ki, bu sistemdə əsas kriteriya müəssisələrin həcmləri hesab edilir. İqtisadi ədəbiyyatlarda sahibkarlıq müəssisələrini iri, orta və kiçik müəssisələrə bölünürlər. Məqalədə əsas tədqiqat obyekti kimi kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti, xüsusən də adı çəkilən subyektlərin işçi qüvvəsindən səmərəli istifadə edilməsi məsələsindəki rolu ilə bağlı yaranmış situasiya ilə bağlı elmi müşahidə və təhlillərin aparılması başlıca mqəsəd seçildiyindən əsas diqqət kiçik sahibkarlıq fəaliyyəti obyekti və subyektləri ilə bağlı dəyərləndirmələrə yönəldimişdir. Belə bir zəmində xüsusi olaraq qeyd edilməsi yerinə düşərdi ki, müasir dövrdə dünya ölkələrinin iqtisadi praktikası və bununla bağlı dəyərləndirmələrin araşdırılması əsasında belə bir mühakimə irəli sürmək olar ki, ümumiyyətlə müəssisələrin kiçik, orta və iri müəssisələrə, həmçinin müvafiq olaraq sahibkarlıq subyektləri ilə bağlı belə qruplaşdırmanın aparılması ilə bağlı yekdil fikir tam formalaşmamışdır. Lakin bir məsələ ilə bağlı dəqiq mühakimə irəli sürmək mümkündür ki, kiçik sahibkarlıq fəaliyyəti iri və orta sahibkarlıq subyektləri üçün bəzən iqtisadi baxımdan maraqsız, bəzən qeyri mümkün və qeyri rentabelli hesab edilən sahələrdə uğurla fəaliyyət göstərə bilirlər. Kiçik sahibkarlığın əhatə dairəsi aşağıdakılardır:

- Yerli bazarda mövsümü tələbat, xırda lakin çox saylı istehlakçı sifarişlərin təmin edilməsi;
- Orta və iri müəssisələrə istehsal, təchizat və istehlak təyinatlı əmtəə istehsalı və xidmətlərin göstərilməsi və s. göstərilə bilər;
- Yeni iş yerlərinin yaradılması, işçi qüvvəsində faydalı istifadə olunması imkanlarının reallaşdırılması
- çevik və mobil icra mexanizmləri vasitəsi ilə riskli, innovativ ideyaların mənimsənilməsi, praktiki baxımdan təmin olunması;

Müvafiq olaraq dünyada bəzi ölkələrdə mövcud praktikanın nəzərdən keçirilməsi məqsədəuyğun olardı. Belə bir kontekstdə qeyd etmək yerinə düşərdi ki, ABŞ-da və eyni zamanda digər qərb ölkələrində kiçik biznes, kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin mühüm sferalarından biri kimi qiymətləndirilməsinin ciddi əsası vardır. Bütün bunlar hər şeydən öncə kiçik biznesin, kiçik sahibkarlıq fəaliyyətinin həmin ölkənin iqtisadi potensialının formalaşması və inkişafındakı rolu ilə bağlıdır. Bu ölkələrdə kiçik müəssisələrə işçilərinin sayı 500 nəfər olan müəssisələr aid edilir (emal sənayesində) və Azərbaycan reallıqları ilə müqayisə edildikdə həmin müəssisələri ölkəmizin iqtisadi praktikasında hətta iri sahibkarlıq müəssisələri kimi nəzərdən keçirmək olar. Göründüyü kimi, ölkənin iqtisadi potensialı yüksəldikcə nisbi qruplaşdırma meyarlarının kəmiyyət göstəriciləri də yüksəlir.

Digər tərəfdən ABŞ-da sahibkarlıq fəaliyyəti ilə araşdırma aparan analitiklər kiçik sahibkarlıq müəssisələrinin məşğulluq kriteriyası ilə bağlı aşağıdakı faktlara diqqəti yönəldirlər. ABŞ Dövlət Departamentinin məlumatlarına istinadən iş yerləri təklif edən 19.6 milyon şirkətdə hər birində 20 nəfərdən az işçinin, 18,4 milyon şirkətin hər birində 20 nəfərdən 99 nəfərə qədər işçinin, 14, 6 milyon şirkətin hər birində 100 nəfərdən 499 nəfərə qədər işçinin, 47.7 milyon şirkətin isə hər birində 500 nəfərdən çox işçinin çalışdığı qeyd olunur. Göründüyü kimi, müasir dövrdə ABŞ-da fəaliyyət göstərən şirkətlərin yarıdan çoxu ABŞ kriteriyalarına əsasəm kiçik müəssisə kimi təsbit olunmuş şirkətlərdir və kiçik şirkətlərin sayı sürətlə artmışdır.

Deyilənlərlə yanaşı dünya praktikasında kiçik sahibkarlıq fəaliyyəti üçün xarakterik olan daha bir xüsusiyyət nəzərə alınmalıdır ki, kiçik müəssisələr sürətlə yaradılır, lakin eyni zamanda sürətlə də müflisləşirlər. Nümunə üçün yenə də ABŞ-ın praktikasına müraciət etdikdə məlum olur ki, 1980-ci ildə kiçik müəssisələrin sayı 13 milyondan müasir dövrdə 52,6 milyona qədər artmışdır. Burada artım 3 dəfədən yüksəkdir. Bundan əlavə kiçik və orta şirkətlər ölkədə məşğulluğun 80%-ni təmin edir [9]. 1990-1995-ci illərdə yeni yaardılmış iş yerlərinin təxmini olaraq dörddə-üç hissəsi kiçik müəssisələrin payına düşür, 2010-2016-cı illərdə bu göstəricidə kəskin deyil, hər il tədricən azalma müşahidə olunmuşdur[12]. Lakin 2017-ci ilin dekabrından bu mənzərə bir qədər dəyişmiş, mövcud iş yerlərinə daha 2 milyon yeni iş yeri əlavə olunmuşdur [14].

Qeyd etmək lazımdır ki, ABŞ-da kiçik biznesin dövlət tərəfindən dəstəklənməsinə xüsusi diqqət yetirilir və həmin məqsədlər üçün hələ 1953-cü ildən yaradılmış kiçik biznes Administrasiyasının (SBA) fəaliyyət göstərir. Lakin həmin təşkilatın funksiyalarını yerinə yetirən institutlar hələ 30-cu illərdən mövcud olmuşdu və 1932-ci ildə Maliyyə Korporasiyasının Bərpası (The Reconstruction Finance Corporation (RFC) təşkilatı kimi fəaliyyət göstərməyə başlamışdı. Federal səviyyədə həyata keçirilən proqramlar içərisində kiçik biznesin müxtəlif aspektlərdən, xüsusən də maliyyə təminatının yaxşılaşdırılması baxımından tədbirlər həyata keçirilirdi [13].

Müasir dövrdə Kiçik biznes Administrasiyası bu sahədə mövcud vəziyyətlə əlaqədar məlumatlar dərc etdirir və həmin məlumatlardan məlum olur ki, son 5 il ərzində kiçik biznesin payına son on illikdə hər il yaradılmış yeni iş yerlərinin 60-80%-i düşür [10].

Heç də təsadüfi deyildir ki, kiçik biznesin, kiçik sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, hər şeydən öncə bazar iqtisadiyyatının, rəqabətli iqtisadiyyatın dəstəklənməsi deməkdir.

1953-cü ildə AB,-ın federal qanunda kiçik bizneslə, kiçik sahibkarlıq fəaliyyəti ilə əlaqədar qəbul edilmiş Qanunda belə təsbit olunmuşdur: Azad rəqabətin müdafiəsi və mükafatlandırılması təkcə ölkənin iqtisadi rifahının deyil, eyni zamanda ölkənin təhlükəsizliyinin əsasını təmin edir. Təhlükəsizlik və rifah kiçik biznesin mövcud və potensial imkanları stimullaşdırılmadan qeyri mümkündür. Konqres hesab edir ki, hökumət hər nə qədər imkan vardırsa, bir o, qədər kiçik biznes müəssisələrini dəstəkləməlidir, onlara məsləhətlər verməli, kömək etməli, onların maraqlarını qoruyaraq azad sahibkarlıq rəqabətini mühafizə etməlidir[8].

ABŞ-da kiçik biznesə belə bir münasibət hər il kiçik sahibkarlıq subyektlərinin, kiçik sahibkar müəssisələrinin sayının artmasına səbəb olmuşdur.

Daha bir vacib məqam kimi qeyd etmək lazımdır ki, Kiçik Biznes Administrasiyası artıq uzun illərdi ki, bu sahənin ABŞ-da inkişaf etdirilməsi, dəstəklənməsi üçün strateji planlar hazırlayır. Bunlar aşağıdakılardır:

- 2011-2016-ci Fiskal illərində Kiçik Biznes Administrasiyasının Strateji Planı (SBA Strategic Plan Fiscal Years)
- 2014-2018-ci i Fiskal illərində Kiçik Biznes Administrasiyasının Strateji Planı (SBA Strategic Plan Fiscal Years 2018 – 2022);
- 2018-2022-ci Fiskal illərində Kiçik Biznes Administrasiyasının Strateji Planı (SBA Strategic Plan Fiscal Years 2018 – 2022);
- Kiçik Biznes Administrasiyasının İnformasiya Resurslarının İdarə olunmasının Strateji Planı (SBA IRM Strategic Plan)

Postsovet məkanına daxil olan ölkələrdə – kiçik sahibkarlıq sektoru

Postsovet məkanına daxil olan ölkələrdə sahibkarlıq institutları və o cümlədən kiçik sahibkarlıq institutları əsasən bazar iqtisadiyyatı münasibətlərinə keçidlə əlaqədar həyata keçirilən islahatlarla bir vaxtda formalaşmağa başlamışdır. Post sovet ölkələrində kiçik sahibkarlıq institutlarının formalaşması və inkişafı obyektiv və qanunauyğun prosesə çevrilmişdir.

Kiçik sahibkarlıq bazar iqtisadiyyatının müstəqil sektoru kimi fəaliyyət göstərərək milli təsərrüfatın baza tələbatlarının təmin olunmasında mühüm yer tutur. Heç də təsadüfi deyildir ki, məhz kiçik biznesdə ölkənin sabitliyi, cəmiyyətin sosial-iqtisadi inkişafının təmin

olunması baxımından çox böyük, hələ də kifayət qədər istifadə olunmayan potensial mövcuddur. Məhz bu səbəbdən də post sovet məkanına daxil olan ölkələrin analitikləri cəmiyyətin davamlı sosial-iqtisadi inkişafının təmin olunmasında, əhalinin həyat səviyyəsi standartları və keyfiyyətinin yüksəlməsi, işsizlik probleminin həlli və məşğulluq səviyyəsinin yüksəlməsi baxımından mühüm yer tutan strateji resurs kimi dəyərləndirirlər[4].

Müvafiq olaraq bir qədər daha ətraflı Rusiya Federasiyasında kiçik sahibkarlıq institutlarının fəaliyyəti ilə bağlı bəzi faktlara diqqət yetirilməsi yerinə düşərdi. Qeyd etmək lazımdır ki, hal-hazırda Rusiya Federasiyasında 220 mindən çox kiçik müəssisə (*mikro müəssisələr nəzərə alınmadan)* fəaliyyət göstərir. Kiçik və orta müəssisələrin Ümümi Daxili Məhsulda çəkisi 10%-dir. Kiçik müəssisələrin fəaliyyəti ilə bağlı göstəricilərin yüksəlməsi 2008-cu ilə qədər müşahidə olunsa da, 2008-ci, daha sonra 2010-cu ildən başlayaraq göstəricilərin aşağı düşmüşdür. Təkcə bir faktın qeyd olunması yerinə düşərdi ki, 2008-2010-cu illərdə kiçik müəssisələrin sayı 63 minə qədər azalmışdır. Bu sektorda çalışanların da sayı 6217,7 min nəfərdən 5999,8 min nəfərə qədər azaldı. Başlıca səbəbləri qismində yüksək gəlir gətirən sahələrin əhatə dairəsinin daralması, zəif investisiya mühiti, maliyyə imkanları ilə bağlı ümidlərin yoxa çıxması və s. kimi, iqtisadi faktorlarla yanaşı sosial-psixoloji faktorlarında mövcudluğuna diqqət yönəldilir[3].

2017-ci ildən başlayan sabitləşmə, 2018-ci ilin əvvəllərindən bu sahədə kəmiyyət göstəricilərinin yüksəlməsi ilə müşahidə olunmuşdur. Rəsmi dairələrin məlumatına görə indiki dövrdə Rusiya Federasiyasında kiçik müəssisələrin sayı 6 milyondan yuxarıdır [15]

Azərbaycanda sahibkarlıq fəaliyyətinin təşkili xüsusiyyətləri

Müstəqillik illərində Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı məqsədyönlü şəkildə müvafiq qanunlar qəbul olunmuş, Dövlət Proqramları işlənilib hazırlanaraq həyata keçirilmişdir. 1997-ci ildə iyunun 24-də Azərbaycan Respublikası Prezidentinin 610 nömrəli və 2002-ci ildə avqustun 17-də 753 nömrəli fərmanları ilə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı (1997-2000-ci illər)" və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər), Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Dövlət Proqramları və Strateji Yol Xəritəsində bilavasitə müstəqillik illərində respublikada sahibkarlıq subyektlərinin, xüsusən də kiçik sahibkarlıq subyektlərinin formalaşması və inkişafı ilə bağlı əsas istiqamətlər müəyyənləşdirilirdi. Deyilənlərlə yanaşı ölkə iqtisadiyyatının bu və ya digər sahəsinin inkişafı, regional inkişaf proqramlarında əsas inkişaf istiqamətlərdən biri kimi milli sahibkarlıq subyektlərinin, o, cümlədən kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi təsbit olunmuşdur. Həmin dövlət Proqram və sənədləri içərisində Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi xüsusi olaraq diqqəti cəlb edir.

Təbiidir ki, həyata keçirilən tədbirlər öz təsirini iqtisadi müstəvidə hiss etdirməyə başlamışdır.

Qeyd etmək lazımdır ki, 2015-ci il üzrə qeydiyyatdan keçmiş hüquqi və fiziki sahibkarlıq subyektlərinin1%-i iri, 2%-i orta, 97%-i isə kiçik sahibkarlardır [1].

Azərbaycan Respublikasında rəsmi mövqedən sahibkar meyarlarına görə sahibkarlar iri (*işçilərinin sayı 125 nəfərdən yuxarı, illik gəliri 1250 manatdan yuxarı),* orta *(işçilərinin sayı 125 nəfərə qədər, illik dövriyyəsi 1250 min manata qədər)*, kiçik sahibkarlara (*işçilərinin sayı 25 nəfərə qədər, illik dövriyyəsi 200 min manata qədər)* bölünürlər [1]. Belə bir bölgü "iqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədlərinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 20 aprel tarixli 57 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 215 nömrəli qərarına əsasən, 2015-ci il üzrə kiçik sahibkarlıq

subyektlərinin qruplaşdırılması yenidən aparılmışdır [16].

Lakin qeyd etmək lazımdır ki, Azərbaycanda sahibkarlıq subyektlərinin meyarlarına görə yeni bölgüsünün aparılması gündəmdədir. Sahibkarlıq haqqında qanuna yeni 4-1 (Sahibkarlıq subyektlərinin meyarlara görə bölgüsü) maddəsi əlavə edilir. Yeni maddəyə görə sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə bölünməsi nəzərdə tutulur[1].

Müvafiq olaraq kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti ilə bağlı bir qədər də daha aydın təsəvvürlərin formalaşdırılması üçün bəzi iqtisadi göstəricilərindən nəzərdən keçirilməsi yerinə düşərdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına görə qeyri-neft sektorunda kiçik sahibkarlıq subyektlərinin payı əlavə dəyərdə 5.8%, ümumi mənfəətdə 0.7%, içlilərin orta sayında 6.5% və əsas kapitala yönəldlmiş investisiyalarda 9,2% olmuşdur.

Eyni zamanda son illərdə kiçik sahibkarlıq müəssisələrinin sayında diqqəti cəlb edən artım müşahidə olunur. Əgər 2011-ci ildə Azərbaycan Respublikasında 60223 kiçik müəssisə var idi isə, bu göstərici 2016-cı ildə 83017-yə yüksəlmişdir (şəkil 1).

Şəkil №1



Mənbə: *Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi// http://mida.gov.az/documents, kiçik və orta sahibkarlar, pdf,*

Nəhayət bir məsələnin də xüsusi olaraq qabardılması yerinə düşərdi ki, 2016-cı il yanvarın 1-nə olan məlumatlara görə respublikada qeydiyyatdan keçən hüquqi şəxslərin 12%-i kiçik müəssisələr olsa da onların ÜDM-də payı 4%, məşğulluqda 6,3% olmuşdur. Sahibkarlıq subyektlərinin 99,2%-ni təşkil edən fərdi sahibkarların və kiçik müəssisələrin ÜDM-də, məşğulluqda çəkisi daha yüksək ola bilər.

Lakin bu gün Azərbaycanda kiçik biznesin inkişafına inhisarçılıq güclü əngəl törədir, kifayət qədər sağlam rəqabət mühiti hələ də formalaşmamışdır. Biznesə həddindən artıq yersiz inzibati müdaxilələr də ciddi əngəllərdən hesab oluna bilər. Sivili müasir sahibkar mədəniyyətinin inkişafı üçün marketinq məsələlərinə kifayət qədər diqqət yetirilmir, konsaltinq şirkətləri ilə kiçik sahibkarlar arasında münasibətlər hələ də qənaətbəxş səviyyədə formalaşmamışdır. Bir çox şirkətlər gəlirlərini gizlədir, sahibkarlarla işçilər arasında əmək müqavilələri bağlanmır, bəzi kiçik müəssisələr qeyri leqal fəaliyyət göstərirlər.

Kiçik biznesə, müvafiq olaraq kiçik sahibkarlıq fəaliyyətinə müxtəlif orqanlar tərəfindən nəzarət olunur: Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət standartlaşdırma, meteorologiya və patentləşdirmə Komitəsi, Gömrük Komitəsi tərəfindən . halbuki, nəzarət işinin bir məsul orqan tərəfindən həyata keçirilməsi daha məqsədəuyğun olard.

Məşğulluq probleminin həllində kiçik sahibkarlıq subyektlərinin rolu

Təkzibedilməs fakt kimi qeyd olunmalıdır ki, ölkədə məşğulluq səviyyəsinin yüksəldlməsinin perspektiv istiqamətlərindən biri də kiçik biznesin inkişaf etdirilməsidir. Lakin sözü-

[1] http://m.apa.az/az/iqtisadiyyat-xeberleri/sahibkarliq-fealiyyeti/azerbaycanda-sahibkarliq-fealiyyeti-4-subyekte-bolunecek-5850

gedən problemin hilli ümumiyyətlər kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin spesifikası nəzərə alaraq müvafiq tədbirləri həyata keçirmədən qeyri mümkündür.Yəni hesab edirəm ki, kiçik biznes sektorunda işçi qüvvəsinin səmərəli istifadə edilməsində iki mühüm istiqamət xüsusi olaraq qeyd olunmalıdır. Birinci istiqamət kiçik sahibkarlıq subyektlərinin uğurlu fəaliyyət göstərə bilməsi, iqtisadi tələtümlərə dayanıqlılıq göstərə bilməsi üçün zəruri, dəstəkləyici təbirlər göstərilməsidirsə, ikinci istiqamət bilavasitə, sırf məşğulluq problemlərinin həlli ilə bağlıdır.

Belə bir kontekstdə qeyd etmək yerinə düşərdi ki, kiçik biznesin mühüm xüsusiyyətlərindən biri müəssisənin kiçik olmasıdır. Bu isə öz növbəsində həmin müəssisələri baş verən dəyişikliklərə çevik uyğunlaşmasına imkan yaradır, digər tərəfdən belə bir keyfiyyət kiçik fors-major şəraitlərində müəssisələrin zəif vəziyyəti kimi dəyərləndirilə bilər. Kiçik müəssisələr xarici təsirlərə daha həssasdırlar. Maliyyə və maddi resursların məhdudluğu, nizamnamə kapitalının kiçik həcmə olması, kiçik sahibkarlıq subyektlərinin maraqlarının qorunmasına xidmət edən müdafiə mexanizminin kifayət qədər inkişaf etməməsi kiçik müəssisələrin inkişafına zəif təsir göstərir. Bu səbəbdən kiçik sahibkarlıq müəssisələrinin müdafiə edilməsi ilə əlaqədar bəzi tədbirlərin həyata keçirilməsi tələb olunur:

- Kiçik sahibkarların maliyyə resurslarından geniş istifadə edə bilmələri üçün müvafiq şəraitin yaradılması (lizinq və françayzinqdən istifadə).
- Regional səviyyədə kiçik biznesin dəstəklənməsi üçün vergi güzəştləri;
- Regional marketinq mərkəzlərinin yaradılması;
- Kiçik müəssisələrin yeni təşkilati formalarının inkişafı və təkmilləşdirilməsi;
- Kiçik müəssisələrinə keyfiyyətli informasiya, konsaltinq, maarifləndirmə xidmətləri ilə ixtisaslaşdırılmış ərazi strukturları vasitəsilə təmin edilməsi.

Daha sonra ikinci istiqamət kimi kiçik sahibkarlıq subyektlərinin məşğulluq probleminin həllindəki imkanlarından istifadə edilməsinə diqqət yetirilməlidir.

Müvafiq olaraq qeyd etmək lazımdır ki, məşğulluğun standart və qeyri standartlarının istifadə olunması ilə yanaşı ölkədə özünəməşğulluğun da inkişaf etdirilməsinin stimullaşdırılmasına ciddi diqqət yetirilməlidir. Lakin özünüməşğulluğun stimullaşdırılması aşağıdakı istiqamətlərdə həyata keçirilməlidir:

1. Kiçik biznesin stimullaşdırılması fəal məşğulluq probleminin nəticəsi olmalıdır, qeyd edilən istiqamətdə kiçik müəssisələrin maliyyələşdirilməsi, kiçik məüssisələrin maliyyələşdirilməsi və özü üçün iş yerləri yaratmaq istəyənlərin maarifləndirilməsi üçün təhsil proqramları hazırlanmalıdır.
2. Özü üçün iş yerləri yaradanlara güzəştlər edilməlidir: vergi güzəştləri, dövlət subsidiyalarının verilməsi.
3. Autosorsinq- iri şirkətlər tərəfindən bəzi funksiyaların kiçik müəssisələrə, ailə təsərrüfatlarına verilməsi.
4. Nəhayət kadrların, yüksək ixtisaslı mütəxəssislərin ölkədən getməsinin qarşısının alınması üçün onlara respublikada ixtisaslaşdığı sahələrdə öz bizneslərini qurmasının dəstəklənməsi.

Deyilənlərlə yanaşı respublikanın işsiz əhalisi arasında məşğulluq probleminin həlli istiqamətində müvafiq tədbirlərin görülə bilər:

1. xüsusi müayinə və müşahidələr əsasında ***(profilləşdirmə)*** işsizlərin kateqoriyalarını təsbit etmək olar. Qeyd etmək lazımdır ki, profilləşdirmənin aparılması işsizlik probleminin daha səmərəli həllinə, həmçinin işsizlərin profillərinə uyğun yeni şəraitdə adaptasiya olmalarına, bununla da iş qüvvəsindən daha səmərəli istifadə olunmasına imkan yaradır. Lakin nəzərə almaq lazımdır ki, işsizlik probleminin həlli, işçi qüvvəsindən səmərəli istifadə olunması üçün Məşğulluq strukturları ilə müştərək fəaliyyət göstərilməsi tələb olunur. Bu səbəbdən də məşğulluq xidməti orqanları bir sıra istiqamətlərdə müvafiq tədbirləri həyata keçirməlidir:
2. Bütün təşkilatlardan işçilərin əmək fəaliyyətlərindəki dəyişikliklərlə bağlı informasiya əldə edilməsi üçün sorğunun göndərilməsi, sorğuya əsasən ixtisar edilən işçilər və həmçinin innovativ tədbirlər əsasında boş qalan yerlər haqqında məlumatların verilməsi;

3. İşsizləri müəssisələrdə boş qalmış iş yerlərinə yönləndirilməsi;

4. Dövlət büdcəsindən məşğulluq məsələlərinin həlli üçün ayrılmış vəsaitlərin təyinatı üzrə sərf edilməsi;

5. İş axtaranların yeni ixtisaslara yiyələnmələri üçün peşə hazırlıqları üçün tələb olunan vəsaitlərin ödənilməsi;

6. İşsizlərə vəsaitlərin verilməsi ilə bağlı məsələlərin həlli;

Əhalinin əmək fəaliyyəti ilə bağlı mövcud vəziyyətin düzgün dəyərləndirilməsi üçün informasiyanın toplanması, təhlili və istifadəsi üçün proseslərin kopüterləşdirilməsi tələb olunur[6].

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi// http://mida.gov.az/documents, kiçik və orta sahibkarlar, pdf,

2. S.S.Səməndərov, Özəlləşdirmə təhlil və araşdırmalar kontekstində: problemin mə şəyi və yanaşmalar// Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat elmləri seriyası, 2008, №3,s.38-45

3. Малые предприятия (без микропред>приятий) [Электр. ресурс] // Росстат. URL:www.gks. ru/bgd/regl/b10_01/Iss WWW. exe/Stg/d08/2>3>2.htm (дата обращения: 17.04.2011).

4. Ромашова Л.О., Тенденции развития малого предпринимательства в России// Ромашова Людмила Олеговна Тенденции развития малого предпринимательства в России // Знание. Понимание. Умение. 2011. №2. URL: https://cyberleninka.ru/article/n/tendentsii-razvitiya-malogo-predprinimatelstva-v-rossii (дата обращения: 13.03.2018).

5. Федонина Е.В., Малое предпринимательства в структуре экономике// Transport Business in Russia, с. 157-159

6. http://m.apa.az/az/iqtisadiyyat-xeberleri/sahibkarliq-fealiyyeti/azerbaycanda-sahibkarliq-fealiyyeti-4-subyekte-bolunecek-5850

7. Чепуренко А.Ю., Малое предпринематедьство в Росси//Мир Росии, 2001№4, (с. 130-161), с. 131

8. Small Business in the American Economy. Washington, D.C.: U.S. Government Printing Office, 2006. , p.4

9. Statistical Abstract of the United States. 2007. , p.497

10. US Small Business Adminsitration Site // www.sba.gov/advo/research/rs299tot.pdf.

11. http://m.apa.az/az/iqtisadiyyat-xeberleri/sahibkarliq-fealiyyeti/azerbaycanda-sahibkarliq-fealiyyeti-4-subyekte-bolunecek-5850

12. https://www.thoughtco.com/intro-to-small-business-in-the-united-states-1147915

13. https://www.sba.gov/about-sba/what-we-do/history

14. http://money.cnn.com/2018/01/05/news/economy/december-2017-jobs-report/index.html

15. https://rg.ru/2018/01/31/medvedev-chislo-malyh-predpriiatij-v-rossii-prevysilo-6-millionov.html

16. https://www.stat.gov.az/source/entrepreneurship/https://www.stat.gov.az/source/entrepreneurship/https://www.stat.gov.az/source/entrepreneurship/

Наджафова Т.Р. Ph.D

Вопросы развития малого предпринимательства и решения проблем занятости в Азербайджанской Республике

Резюме

В статье исследуется некоторые особенности развития малых предприятий решения проблем занятости в некоторых странах мира и в Азербайджанской Республике. Кроме того, рассматриваются место и роль малого предпринимательства в экономике страны, а также решение многих социальных проблем, а также потенциальные возможности для роста занятости в стране. На

этой основе анализируются возможности совместной деятельности в решении проблемы занятости ряда социально-экономических институтов с субъектами предпринимательства в Азербайджане.

Ключевые слова: *предпринимательская деятельность, малый бизнес, занятость, частный сектор, рабочая сила*

Nejefova T. R. Ph.D

Issues of development of small entrepreneurship and solving employment problems in the Republic of Azerbaijan

Resume

The article assesses the potential of development opportunities in some countries of the world and the development of small business institutions in the modern world, the role and place of small businesses in the country's economy, and the solution of many social problems. On this basis, the author analyzes the opportunities of joint activity for solving of the employment problem.

Keywords*:* *business idea, small business, livelihood, private sector, working environment, labor force*

Daxil olub: 03. 11.2017

Rəy verib: AMEA İqtisadiyyat Institutunun *"Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı problemləri"* şöbəsinin əməkdaşı i.f.d. *Efendiyev R. C.*